rdoğanla Putin arasında telefon danışığı olub

Yazan
23.08.14 12:02 -



Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

APA-nın Kremin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, Türkiyə tərəfinin təşəbbüsü ilə baş tutan telefon söhbətində liderlər enerji sahəsində birgə layihələrin reallaşması da daxil olmaqla, ikitərəfli münasibətlərin aktual məsələlərini müzakirə ediblər.

Tərəflər Rusiya-Türkiyə əlaqələrinin müxtəlif istiqamətlərdə genişlənməsində maraqlı olduqlarını da vurğulayıblar.